**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT UNİVERSİTETİ**

**<u>KİTABXANA-İNFORMASİYA MƏRKƏZİ</u>**

***Tamilla Əsgərova***

# AZƏRBAYCAN DÖVLƏT MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT UNİVERSİTETİNDƏ MÜDAFİƏ OLUNMUŞ MAGİSTR DİSSERTASİYALARI (2012-2020-ci illər)

***elmi-metodik və biblioqrafik vəsait***

ADMİU-nun Elmi Şurasının 25 noyabr 2020-ci il tarixli iclasının qərarı ilə nəşr olunur (protokol № 02)

**BAKI - 2021**

**Ön söz:** Sədaqət Əliyeva
Kulturologiya üzrə fəlsəfə doktoru, dosent
*ADMİU-nun elm və yaradıcılıq işləri üzrə prorektoru*

**Elmi məsləhətçi:** Gülşən Əliyeva-Kəngərli
filologiya üzrə elmlər doktoru, professor
*ADMİU-nun Beynəlxalq əlaqələr və tərbiyə işləri üzrə prorektoru*

**İxtisas redaktoru:** Natiq Mürsəlov
*ADMİU-nun Kitabxana-informasiya Mərkəzinin əməkdaşı, Kulturologiya fakültəsinin müəllimi, AMEA-nın doktorantı*

**Rəyçilər:** Pərviz Kazımi
tarix üzrə fəlsəfə doktoru, *ADMİU-nun Turizm və kitabxana-informasiya fəaliyyəti kafedrasının dosenti*

Adilə Abdullayeva
tarix üzrə fəlsəfə doktoru, *Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) Kitabxana-informasiya Mərkəzinin direktoru*

Əsgərova, T. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində müdafiə olunmuş magistr dissertasiyaları (2012-2020-ci illər) [Mətn] : elmi-metodik və biblioqrafik vəsait / Tamilla Əsgərova ; elmi məsləh. : G.Əliyeva-Kəngərli ; Ön söz : S.Əliyeva ; ixtisas red.: N.Mürsəlov ; rəy.: A.Abdullayeva, P.Kazımi ; Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti. - Bakı : ADMİU, 2021. - 80 s.

*Vəsait ADMİU-da magistr dissertasiyalarının tərtibinə dair ümumi qaydaları özündə əks etdirir. İlk dəfədir ki, ADMİU-da 2012-2020-ci illərdə müdafiə olunmuş və Kitabxana-informasiya Mərkəzinin fondunda saxlanılan magistr dissertasiyalarının biblioqrafik göstəricisi bu vəsaitdə oxuculara təqdim edilir. Dissertasiyalar Universal Onluq Təsnifat (UOT) cədvəllərinə əsasən fakültələrə uyğun olaraq elm sahələri üzrə sistemləşdirilib.*

*Elmi-metodik və biblioqrafik vəsait ADMİU-nun professor-müəllim heyəti, tələbə və magistrantlarının istifadəsi üçün nəzərdə tutulub.*

© T.Əsgərova, 2021

# ÖN SÖZ

Avropanın "Bolonya prosesinə" qoşulmuş ölkələri, o cümlədən Azərbaycan Respublikası öz təhsil sistemlərinə magistr təhsil pilləsini daxil etmişlər. Hazırda ölkəmizin qabaqcıl ali təhsil müəssisələrindən biri olan Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində (ADMİU) magistratura təhsili peşəkar mütəxəssislərin yetişdirilməsində əhəmiyyətli və mütəşəkkil bir rol oynayaraq çoxpilləli ali təhsilin ayrılmaz və dinamik bir hissəsini təşkil edir. ADMİU-da magistr hazırlığı Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş magistr ixtisaslaşmalarının (proqramlarının) təsnifatına uyğun həyata keçirilir. Magistr təhsili iki il ərzində, peşə yönümündən asılı olaraq öncədən alınmış bakalavr təhsilini elmi cəhətdən dərinləşdirməyə və əlavə ixtisasa yiyələnməyə xidmət edə bilər. Bundan əlavə magistr dərəcəsi doktoranturada təhsil üçün əsas şərt sayılır. Azərbaycanda magistr təhsilinin əsasları "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda ətraflı şərh edilmişdir.

Bu gün ADMİU-da magistratura - ali təhsilin ikinci səviyyəsinin tələblərinə uyğun olaraq, yüksəkixtisaslı, sərbəst yaradıcılıq fəaliyyəti göstərə biləcək mütəxəssislərin hazırlığını təmin edən təhsil prosesidir. Burada magistratura səviyyəsində təhsilin məzmunu bir-biri ilə əlaqəli nəzəri təlimdən, elmi-tədqiqat işlərindən, pedaqoji və peşəkar hazırlıqdan ibarətdir. Magistrantın nəzəri təlimi və pedaqoji hazırlığı humanitar, ixtisas və ixtisaslaşma fənlərinin mühazirə, məşğələ, seminar, məsləhət, sərbəst iş, pedaqoji təcrübə və s. formada öyrənilməsi ilə

təmin olunur. Magistrantın elmi-tədqiqat fəaliyyəti hər semestr üçün nəzərdə tutulmuş elmi-tədqiqat işlərinin yerinə yetirilməsindən, elmi-tədqiqat və elmi-pedaqoji təcrübələrdən və magistrlik dissertasiyasının hazırlanmasından ibarətdir. Magistratura üzrə aparılan elmi-tədqiqat işləri axtarış və tətbiqi xarakterli işlər olmalıdır.

Hazırda magistr ixtisaslaşma hazırlığı proqramlarının elmi-tədqiqat hissəsi üzrə ADMİU-da magistrantların bilik və bacarıqlarına müəyyən tələblər qoyulmuşdur. ADMİU-nun magistrantı öz elmi-tədqiqat fəaliyyətində aşağıdakıları bacarmalıdır:

- tədqiqatın vəzifələrini konkret şəkildə ifadə etməyi;
- tədqiqatın planını tərtib etməyi;
- müasir informasiya texnologiyalarından istifadə etməklə biblioqrafik işləri yerinə yetirməyi;
- tədqiqat üçün zəruri olan üsulları seçməyi;
- konkret tədqiqatın tələblərinə uyğun olaraq mövcud üsulları modernləşdirməyi və yeni üsullar hazırlamağı;
- elmi ədəbiyyatda mövcud olan məlumatları nəzərə almaqla özünün əldə etdiyi nəticələri təhlil etməyi və aydınlaşdırmağı;
- müxtəlif nəşr vasitələrindən istifadə etməklə görülmüş işlərin nəticələrini müasir tələblərə uyğun gələn məruzələr, hesabatlar, referatlar və ya məqalələr şəklində tərtib və təqdim etməyi.

Magistrantlar bir məsələni yaxşı yadda saxlamalıdırlar ki, öyrənməyi bacarmaq - dərsliklər, dərs vəsaitləri, dövri nəşrlər və digər müvafiq tədris vasitələri, texnologiyalarla işləmək, elmi sferanın fəal iştirakçısına çevrilmək kimi gündəlik və plana uyğun fəaliyyətlərin müstəqil yaradıcılıq zəminində inki-

şafını ehtiva edir. Bu istiqamətdə magistrantlarda başlanğıc olaraq, qarşıya çıxmış məsələlərin həllində ilkin mətnlərlə işləmək və yeni - ikinci mətnlər yaratmaq bacarığının formalaşdırılması missiyası dayanır. Məhz bu prosesdə magistrantlar informasiyanın çıxarılması, kodlaşdırılması və emalını müstəqil həyata keçirmək vərdişlərinə yiyələnirlər. Bu fəaliyyətlər içərsində magistr dissertasiyasının hazırlanmasının da əhəmiyyəti yüksəkdir.

Lakin öncə magistrantlar bakalavr pilləsində əldə etdikləri informasiyaların emalı səriştəsini bir daha təkmilləşdirməlidir. Mümkün deyil ki, magistratura pilləsinə yüksəlmiş olanlar konspektlər tərtib etmək təcrübəsindən keçməmiş olsunlar. Axı tədris prosesində onlar zəruri konspektləşmə işi ilə daim qarşı-qarşıya gəlmiş və müxtəlif fənlər üzrə saysız konspektlər tərtib etmişlər. Lakin onlar bu işi əksər hallarda metodoloji baxımdan tövsiyə edilməyən ənənəvi üsul və prinsiplər və öz bacarıqlarından istifadə etməklə yerinə yetirmişlər.

ADMİU-nun Kitabxana-informasiya Mərkəzinin müdiri Tamilla Əsgərovanın tərtib etdiyi mövcud elmi-metodik və biblioqrafik vəsait bu baxımdan magistrantlara müvafiq sahədə ümumi köməklik göstərməklə yanaşı, həm də onlara mətnlərlə işləmədə, informasiyaların ümumiləşdirilməsi yollarının üzə çıxarılmasında, konspekt tutmanın ən müxtəlif metodoloji üsullarının mənimsənilməsində və ən nəhayət, hazırladıqları dissertasiyaların prezentasiyalarının keçirilməsində əvəzsiz bələdçilik edəcəkdir.

Bu vəsaitdə magistrantlar ilkin mətnlərlə işləmək metodikası ilə tanış olacaq, annotasiyalar qurmanın, xülasələr vermənin, referat tərtibinin və nəhayət, bitkin formada dissertasiya

hazırlamanın metodoloji üsullarına yiyələnəcəklər. Bu baxımdan mövcud metodik vəsaitdə dissertasiyanın tərtibat prinsipləri, metodları, reallaşdırma mərhələləri, yazılış stili və qiymətləndirilməsi meyarları geniş metodik aspektdə əksini tapmışdır.

Magistrantların dissertasiya işlərinin məzmun, yerinə yetirilmə və qiymətləndirilmə tələblərinin ümümiləşdirilməsi məqsədi ilə hazırlanmış bu elmi-metodik və biblioqrafik vəsait tədris fənləri müxtəlifliyindən asılı olmayaraq kafedralarda müvafiq dissertasiyaların hazırlanmasının çərçivə sənədi kimi çıxış edir.

Nəşrin oxunaqlığını, magistranların vaxtlarından səmərəli istifadə etmək imkanlarını artırmaq məqsədi ilə, vəsaitdə 2012-2020-ci illərdə ADMİU-da müdafiə edilmiş dissertasiyaların biblioqrafiyası da verilmişdir.

Elmi-metodik və biblioqrafik vəsait magistrantlar, magistrlik dissertasiyasının elmi rəhbərləri, rəyçilər, məsləhətçilər və həmçinin özünün elmi yaradıcılıq diapazonunu genişləndirməк istəyində olan gənc tədqiqatçılar üçün nəzərdə tutulmuşdur.

**Sədaqət Əliyeva**
Kulturologiya üzrə fəlsəfə doktoru, dosent
*ADMİU-nun elm və yaradıcılıq işləri üzrə prorektoru*

# MAGİSTR DİSSERTASİYASI VƏ ONUN MÖVZUSUNUN SEÇİLMƏSİ PROSESİ

*Magistr dissertasiyası* (bundan sonra - dissertasiya) - elmi rəhbərin tövsiyələri əsasında magistrant tərəfindən magistr dərəcəsini almaq üçün yazılan, onun yüksək ixtisaslı peşə fəaliyyətinə və elmi-tədqiqat işlərinə hazırlığını nümayiş etdirən elmi-tədqiqat işidir.

Dissertasiyanın yazılmasında məqsəd magistrantın müstəqil tədqiqat aparmaq qabiliyyətlərini və elmi potensialını inkişaf etdirmək, eləcə də müasir tədqiqat metodlarından istifadə etmək və ümumiləşdirmələri (sintez) aparmaq bacarığını ortaya çıxarmaqdan ibarətdir.

*Elmi rəhbər* - dissertasiya mövzusunun, tədqiqat obyektinin və predmetinin, tədqiqat metodlarının, tədqiqatın informasiya bazasının və mənbələrin seçilməsi proseslərində, eləcə də dissertasiya planının tərtib edilməsində və tədqiqatın aparılmasında magistranta zəruri tövsiyələri verən, dissertasiya işinin məzmununun qoyulan tələblərə uyğunluğu barədə rəy verən şəxsdir. Elmi rəhbərin elmi və ya pedaqoji fəaliyyət sahəsi ilə seçilən mövzu arasında uyğunluq olmalıdır.

Magistrantlara elmi rəhbərlik ADMİU-nun elmi adı və ya elmi dərəcəsi olan əməkdaşları ilə yanaşı, müvafiq sahədə praktiki iş təcrübəsinə malik olan digər şəxslər tərəfindən də həyata keçirilə bilər.

*Dissertasiya mövzusunun və elmi rəhbərin seçilməsi prosesinə aşağıdakılar daxildir:*

- dissertasiyanın mövzusu seçilərkən aşağıdakı tələblərə cavab verməlidir:

- nəzəri və praktiki baxımdan aktual olmalıdır;

- ixtisaslaşma istiqaməti üzrə nəzəri-metodoloji və praktiki xarakterli müasir problemlərə həsr olunmalıdır;

- Magistrant dissertasiya mövzusunu və elmi rəhbəri müstəqil olaraq və ya ADMİU-nun müvafiq kafedrası tərəfindən təklif olunan “Magistr dissertasiyası mövzularının və elmi rəhbərlərin siyahısı”ndan (bundan sonra - siyahı) seçə bilər;

- siyahı magistrantlara təhsilin 1-ci ilinin okyabr ayının 20-dək təqdim edilir;

- Magistrant maraqlandığı mövzular üzrə mənbələrin tədqiqatını (aidiyyəti üzrə müasir elmi kitablar və monoqrafiyalar, elmi məqalələr, konfrans materialları, internet resursları, beynəlxalq təşkilatların tədqiqatları, statistik məlumat bazaları və s.) aparmalı, həmin mövzular üzrə elmi rəhbərdən zəruri tövsiyələri alaraq seçdiyi dissertasiya mövzusunu noyabr ayının 20-dək kafedraya təqdim edir. Eyni mövzununun iki və ya daha çox magistrant tərəfindən seçilməsinə yol verilmir;

- Magistrant mövzunu siyahıdan seçdiyi halda siyahıda həmin mövzu üzrə elmi rəhbər kimi təklif olunan şəxs və ya şəxslərdən biri elmi rəhbər kimi qəbul edilir;

- Magistrant siyahıda adı olmayan mövzu və ya elmi rəhbər təklif etdiyi halda mövzunun və elmi rəhbərin müəyyən edilən tələblərə uyğunluğu kafedrada yoxlanılır (Magistrant təklif etdiyi elmi rəhbərin elmi adını və elmi dərəcəsini təsdiqləyən sənədin rəsmi təsdiqlənmiş surətini, onun işlədiyi təşkilatın rekvizitləri, elmi rəhbərin əlaqə telefonu və e-mail ünvanı barədə məlumatları təqdim etməlidir) və müvafiq qərar qəbul edilir;

- dissertasiya mövzularının və elmi rəhbərlərin yekun siyahısı magistratura pilləsində təhsilin 1-ci ilinin noyabr ayının

sonunadək kafedra Elmi Şurasında müzakirə edilir və təsdiq olunması üçün dekabr ayının 10-dək ADMİU-nun rəhbərliyinə təqdim edilir;

- dissertasiya mövzularının və elmi rəhbərlərin yekun siyahısı ADMİU-nun rəhbərliyi tərəfindən təsdiqlənir.

## MAGİSTR DİSSERTASİYASININ STRUKTURU

Dissertasiyanın həcmi titul vərəqləri, ədəbiyyat siyahısı və əlavələr istisna olmaqla 60 səhifədən az olmamalıdır.

Magistr dissertasiyasının strukturu aşağıdakı ardıcıl hissələrdən ibarətdir:

- Titul vərəqləri - magistr dissertasiyasının birinci və ikinci səhifələridir;
- Xülasə - dissertasiyanın qısa məzmununu əks etdirməklə 12 ölçülü Times New Roman şrifti və 1,0 sətir aralığı ilə "qalın" (Bold) şriftlə yazılmalıdır. Xülasə Azərbaycan dilində təhsil alan magistrantlar üçün İngilis dilində, Türk, Rus və İngilis dillərində təhsil alan magistrantlar üçün isə Azərbaycan dilində tərtib edilməlidir. Xülasə ixtisarlardan istifadə edilməməklə 200-250 sözdən ibarət olmalıdır. Xülasənin məzmununda mövzunun aktuallığı, işin məqsəd və vəzifələri, istifadə olunmuş tədqiqat metodları, tədqiqatın informasiya bazası, tədqiqatın məhdudiyyətləri, tədqiqatın nəzəri və praktiki nəticələri, bu nəticələrin elmi-praktiki əhəmiyyəti əksini tapmalıdır. Xülasənin sonunda 3-5 sözdən ibarət açar sözlər verilməlidir.
- İxtisarlar - bu hissədə işin məzmununda istifadə olunmuş yerli və xarici təşkilatarın və dövlət orqanlarının qısa adlarının, eləcə də adları qısaldılmış nəzəri anlayışların (göstəricilər, me-

todlar və s.) açıqlanması qeyd olunur. Dissertasiyada ixtisarlardan istifadə edilərkən dissertasiyanın yazıldığı dilin orfoqrafiya qaydaları əsas götürülməlidir. İxtisarlar və işarələr əlifba sırası ilə sıralanmalı, hər ixtisarın və işarənin qarşısına açıqlamaları yazılmalıdır.

- Mündəricat - burada dissertasiya işinin girişi, fəsillər (I Fəsil, II Fəsil, III Fəsil) və onların paraqrafları, nəticə və təkliflər, istifadə olunmuş ədəbiyyat siyahısı, əlavələr, cədvəllərin, şəkillərin və qrafiklərin siyahıları başlandığı səhifələr göstərilməklə əks olunur.

- Girişdə aşağıdakı məlumatlar yer almalıdır:

- *Mövzunun aktuallığı:* seçilmiş mövzunun mahiyyəti, fərqləndirici xüsusiyyətləri, elmi-praktiki baxımdan əhəmiyyəti;

- *Problemin qoyuluşu və öyrənilmə səviyyəsi;*

- *Tədqiqatın məqsəd və vəzifələri;*

- *Tədqiqatın obyekti və predmeti* (obyekt tədqiqatın aparılacağı istiqamətləri, predmet isə həmin istiqamətlər üzrə mövcud olan nəzəri-metodoloji bilikləri əhatə edir);

-*Tədqiqat metodları:* dissertasiyada istifadə olunan tədqiqat metodlarının adları;

-*Tədqiqatın informasiya bazası:* tədqiqatın aparılması zamanı tələb olunan faktiki məlumatların rəsmi, elmi və biblioqrafik mənbələri, eləcə də müvafiq internet resursları və digər mənbələr qeyd edilir;

- *Nəticələrin elmi-praktiki əhəmiyyəti;*

- *Dissertasiya işinin strukturu və həcmi.*

Dissertasiyasının mətni aşağıdakı göstərilən qaydada tərtib olunur:

- I fəsil: tədqiqatın nəzəri-metoloji əsaslarının tədqiqi, mövzu ilə bağlı müxtəlif konsepsiyaların ümumiləşdirilməsi, kulturologiya və sənətşünaslıq sahəsindəki alimlərin bu sahədə apardıqları tədqiqat işlərinin nəticələrinin təhlili, nəzəri yanaşmaların fərqli və ümumi xüsusiyyətləri, tədqiqatın aparılması üçün tətbiq olunacaq metodların seçilməsi və bu seçimlərin əsaslandırılması;

- II fəsil: seçilmiş tədqiqat metodlarından və müvafiq informasiya bazalarından istifadə etməklə qoyulmuş problem üzrə mövcud vəziyyətin, eləcə də konkret təşkilat, sahə və sfera timsalında müvafiq göstəricilərin tədqiqi (təhlili, qiymətləndirilməsi və s.), bu əsasda müvafiq qiymətləndirmənin aparılması və problemlərin üzə çıxarılması;

- III fəsil: aparılmış tədqiqatlar vasitəsi ilə əldə edilmiş nəticələr və arqumentlərdən istifadə etməklə sintezin aparılması və qarşıya qoyulan vəzifələrin həlli istiqamətində əsaslandırılmış təklif və mülahizələrin irəli sürülməsi;

- Nəticə və təkliflər: tədqiqat nəticəsində əldə edilmiş nəzəri-metodoloji və praktiki nəticələr ümumiləşdirilərək yığcam şəkildə təqdim edilir (2-3 səhifə həcmində);

- İstifadə edilmiş ədəbiyyat dissertasiyanın yazılması prosesində istifadə edilən mənbələrin siyahısından ibarətdir. Dissertasiyada ən azı 20-30 adda ədəbiyyatdan istifadə olunmalı, əsasən son 5-10 ildə nəşr olunan elmi mənbələrə, xüsusilə elmi məqalələrə üstünlük verilməlidir;

- İstifadə olunmuş ədəbiyyat siyahısı əlifba sırası ilə yazılır. Ədəbiyyat siyahısı yazıldığı dilə görə qruplaşdırılmalıdır. Bu zaman Azərbaycan dilində yazılan əsərlər birinci, digər dillərdə

yazılan əsərlər isə sərbəst ardıcıllıqda qruplaşdırılır. Hər qrupda əsərlərin sıralanması 1-dən başlanır.

Aşağıda ədəbiyyatın biblioqrafik təsvirinin yazılması qaydalarına dair nümunələr göstərilmişdir:

- Elmi jurnaldan götürülmüş məqalə - müəllifin və ya müəlliflərin soyadı və adı, məqalənin adı, elmi jurnalın adı, nömrəsi, il və məqalənin jurnalda yerləşdiyi səhifələr qeyd olunur. Nümunə, *Mürsəlov, N. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində kitabxana və elmi informasiya fəaliyyətinin təşkili // Azərbaycan Milli Kitabxanasının elmi əsərləri, № 9.- Bakı, 2017. S.170-175*

- Tək müəllifli kitab - soyad, adın baş hərfi, (dərc olunma tarixi), kitabın adı, nəşr yeri, nəşriyyat, ili və kitabın həcmi (səhifə) yazılır. Misal, *Talıbzadə, A. Min maska və bir mən... yaxud islam mədəniyyətinin semiolojisi : məqalələr toplusu. - Bakı : Təhsil, 2015. - 376 s.*

- İki və üç müəllifli kitab - müəlliflərin soyadı və adlarının baş hərfləri, (nəşr olunduğu il), kitabın adı, nəşr yeri, nəşriyyat, ili və həcmi qeyd olunur. Məsələn, *Əmirxanov, S., Hüseynov, İ. Dünya muzeyləri və tarixi mədəniyyət abidələri : dərs vəsaiti. - Bakı : Bakı Universiteti nəşriyyatı, 1996. - 250 s.*

- Kollektiv müəllifli kitab - Kitabın adı, ilk müəllifin adının baş hərfi və soyadından sonra və b. qeyd olunur, davamında nəşr yeri, nəşriyyat, ili və həcmi göstərilir. Misal, *Mədəniyyət tarixi və nəzəriyyəsi : dərslik / M. C. Manafova [və b.]. - Bakı : Sabah, 2010. - 876 s.*

- Tərcümə olunmuş əsər - müəllifin və ya müəlliflərin soyadı və adının baş hərfi, əsərin adı, tərcüməçinin adının baş hərfi və soyadı, nəşr yeri, nəşriyyat və səhifə yazılır. Məsələn,

*Kallistov D. Antik teatr / tərc. ed. R. Mustafayeva. - Bakı : Kritika, 2018. - 244 s.*

- Magistr dissertasiyası - müəllifin soyadı və adının baş hərfi, dissertasiyasının mövzusunun adı, elmi rəhbərinin adının baş hərfi və soyadı, universitetin adı, yerləşdiyi yer, nəşr ili və həcmi qeyd olunur. Misal, *Abuzərov, Ə. Muzeylərdə innovasiyaların sosial mədəni inkişaf təsiri : magistrlik dissertasiyası / elmi rəhbər A. Əlizadə ; ADMİU. - Bakı, 2015. - 114 s.*

- Konfrans materialı - Konfransın adı, keçirildiyi tarix, keçirilməsinə məsul təşkilat və ya təşkilatların adı, materialların çap olunduğu yer, nəşriyyat, il və səhifə göstərilir. Məsələn, *Kitabxana-informasiya elmi: tədris və təcrübədə yeni çağırışlar beynəlxalq elmi konfransın materialları. 05 may 2016 / ADMİU ; Azərb.Milli Kitabxanası. - Bakı : ADMİU, 2016. – 307 s.*

- Qəzet materialı - müəllifin soyadı və adının baş hərfi, məqalənin adı, qəzetin adı və çıxdığı gün, ay, il, məqalənin çap olunduğu səhifə qeyd olunur. Məsələn, *Arabskaya, A. Təsviri sənətimizin palitrasına daha bir ilin rəngləri həkk olundu. - Mədəniyyət. - 2018. - 26 dekabr. - S.6*

- Sənədli filmin təsvirinə dair nümunə - *Əbədi ezamiyyət [Elektron resurs] : 1919-cu ildə Paris sülh konfransına göndərilmiş Azərbaycan nümayəndə heyətinin keşməkeşli taleyi barədə sənədli film / Heydər Əliyev Fondu, Bakı Media Center ; quruluşçu rejisserlar V. İslamzadə, F. Əhmədov. - Bakı, 2016.*

- Dissertasiyanın sonunda istifadə olunan əlavələr, eləcə də cədvələrin, şəkillərin və qrafiklərin siyahısı yerləşdirilir.

## MAGİSTR DİSSERTASİYASININ TƏRTİBİ

Dissertasiya A4 (21 x 29,7 sm) formatlı, sıxlığı ən azı 80 g/$m^3$ olan ağ kağızda çap olunur. Dissertasiya işinin son elektron variantı CD-də kafedraya təqdim edilməlidir.

Dissertasiyanın mətni Word faylında magistrantın təhsil aldığı dildə, aydın və səlis cümlələrlə, orfoqrafik və qrammatik qaydalara riayət olunmaqla yazılmalı, hər bir səhifədə soldan 3 sm, yuxarıdan 2 sm, aşağıdan 2 sm və sağdan 1,5 sm boşluq saxlanmalıdır.

Mətn Times New Roman şrifti ilə 14 ölçüdə, sətirlərarası məsafə 1,5 intervalla yazılmalıdır. Fəsil başlıqları böyük hərflərlə, paraqraf başlıqları isə yalnız baş hərfləri böyük hərflərlə yazılır. Fəsil başlıqları və alt başlıqlar tünd (Bold) şriftlə ortalanmış olaraq yazılmalı, başlığın sonuna nöqtə qoyulmamalıdır.

Cədvəl, şəkil və qrafiklərin daxili yazıları, başlıqları və alt şərhləri 1,0 aralıqlı sətirlə, 12 ölçüdə yazılmalıdır.

Magistr dissertasiyasında bütün səhifə nömrələri vərəqin aşağı sağ küncündə verilməlidir. Səhifələnmə "Giriş"dən başlamaqla ərəb rəqəmləri (4, 5, 6 və s.) ilə dissertasiyanın son səhifəsinədək aparılır.

İnformasiya mənbələrindən götürülərək heç bir dəyişiklik edilmədən magistr dissertasiyasına daxil edilən cümlələr, cədvəl, şəkil, diaqram, düstur və digər ifadə vasitələri birbaşa istinad hesab olunur. Birbaşa istinadın məzmunu 40 sözdən az olduqda dırnaq ("__") işarələri içində yazılır. 40 sözdən çox olan istinadlar 12 ölçülü *italic* şriftlə, ayrıca abzas formasında verilir. Belə abzas sağdan və soldan ümumi mətnə nisbətən 1

sm qısa olaraq yazılır. Eynilə köçürülən parçadan bəzi cümlə və ya ifadələrin çıxarılması halında, çıxarmanın edildiyi yerə üç nöqtə (...) qoyulur.

İstinad olunan mənbədəki məlumatların magistrant tərəfindən ümumiləşdirilməsi və öz fikirləri ilə ifadə edilməsi dolayı istinad hesab olunur. Burada əsas məsələ magistrantın məlumatı öz cümlələri ilə və mətnin bütövlüyünü pozmadan göstərməsidir. Dolayı istinadlarda dırnaq işarələri və ya sıxışdırılmış abzaslardan istifadə edilmir.

Magistrant dissertasiyada istinad etdiyi müəlliflərin fikirlərini müzakirə üslubunda təqdim etməyi bacarmalıdır. Dissertasiyanı oxuyan hər kəs istinadların başlanğıcı və sonunu izləyə bilməlidir.

Birbaşa və ya dolayı istinadlardan istifadə edərkən mənbənin göstərilməsi zəruridir. Mənbə göstərilmədən istifadə edilən istinadlar plagiat (elmi oğurluq) kimi qəbul edilir.

Aşağıdakı bəndlərdə xüsusi hallar üçün birbaşa istinadların qaydaları göstərilmişdir:

- Əgər elmi məqalənin bütün məzmununa istinad edilərsə, onda mötərizə içi məlumatlarda məqalənin ədəbiyyat siyahısındakı sıra sayı və məqalənin götürüldüyü elmi jurnalın müvafiq səhifələri göstərilir: (7, s. 227-230)
- Müəllifi olmayan internet sənədə isinad edildikdə rəqəmsal sənədin tam elektron ünvanın ədəbiyyat siyahısındakı sıra sayı qeyd olunur: (21)
- Bir neçə mənbəyə istinad edildikdə hər bir mənbənin ədəbiyyat siyahısındakı sıra sayı qeyd olunur: (19; 23)
- Tək və çoxmüəllifli əsərə istinad edildikdə mənbənin ədəbiyyat siyahısındakı sıra sayı göstərilir (28)

- Bir müəllifin iki və daha çox əsərinə istinad edildikdə hər bir mənbənin ədəbiyyat siyahısındakı sıra sayı verilir: (29, 30)

- Mətndə cədvəllərin hər birinin adı olmalı və cədvəllər mətndə yerləşmə ardıcıllığı ilə sıralanmalıdır. Cədvəlin adı cədvəlin üstündə ortadan qalın şriftlə yazılmalıdır. Cədvəlin altında cədvəlin götürüldüyü mənbə qeyd olunur. Cədvəldəki məlumatlar müəllifin apardığı tədqiqatın nəticələri olduqda, mənbə kimi "müəllifin hesablamaları" sözləri qeyd edilir.

## MAGİSTR DİSSERTASİYASININ YAZILMASI PROSESİNDƏ HESABATLILIQ

Magistrant magistratura pilləsində təhsilin 2-ci ilinin hər semestrində iki dəfə olmaqla dissertasiya üzrə görülmüş işlər barədə elmi rəhbərə müvafiq hesabat təqdim edir;

Hesabatların qəbulunda ardıcıllığa riayət olunmalıdır: əvvəlki hesabat verilmədiyi halda növbəti hesabatın qəbulu və qiymətləndirilməsinə yol verilmir. Hər hansı hesabatı təhvil verməyən və ya qeyd olunan iki fəndən hər hansı biri üzrə yekun nəticəsi 51 baldan az olan magistrantın həmin fənn üzrə akademik borcu yaranır;

Hesabatlar üzrə əsas tələblər aşağıda göstərilmişdir:

- hesabatlar 14 ölçülü Times New Roman şrifti ilə, sətirarası məsafə 1,5 olmaqla, sol kənardan 3 sm, yuxarı və aşağıdan 2 sm, sağ tərəfdən isə 1,5 sm boş yer saxlanılan A4 vərəqdə yazılır. Hesabatın səhifə nömrələri vərəqlərin aşağı sağ küncündə qeyd olunur. Hesabatların həcmi 5-7 səhifə həcmində olmalıdır.

I hesabatda dissertasiya işinin strukturlaşmış ilkin planı, istifadə olunacaq mənbələrin ilkin siyahısı, tətbiq olunacaq metodlar barədə məlumatlar əks olunmalıdır. Magistrant I hesabatı və dissertasiyanın bu hesabatla əhatə olunan hissəsini təhsilin ikinci ilinin oktyabr ayının 15-dək elmi rəhbərə təqdim etməlidir. Elmi rəhbər müvafiq qaydada qiymətləndirməni aparmalı, qiymətləndirmənin nəticələrini əks etdirən hesabatı oktyabrın 30-dək kafedraya təqdim etməlidir.

II hesabatda mövzunun aktuallığını, problemin qoyuluşunu və öyrənilmə səviyyəsini, tədqiqatın məqsəd və vəzifələrini, tədqiqatın nəzəri-metodoloji əsaslarını və istifadə olunacaq tədqiqat metodlarının əsaslandırılmasını əks etdirən ümumiləşdirilmiş müddəalar verilməli, istifadə olunmuş ədəbiyyat siyahısı əlavə olunmalıdır. II hesabat dissertasiya işinin 1-ci fəslinin qısa məzmununu əks etdirməlidir. Magistrant II hesabatı və dissertasiyanın bu hesabatla əhatə olunan hissəsini (1-ci fəsli) təhsilin 2-ci ilinin dekabr ayının 15-dək elmi rəhbərə təqdim etməlidir. Elmi rəhbər müvafiq qaydada qiymətləndirməni aparmalı, qiymətləndirmənin nəticələrini əks etdirən hesabatı dekabrın 25-dək kafedraya təqdim etməlidir.

III hesabatda seçilmiş tədqiqat metodlarının tətbiqində imkan və məhdudiyyətlərə, tədqiqatın informasiya bazasına, əldə edilən nəticələrə dair məlumatlar əks etdirilməlidir. III hesabat dissertasiya işinin 2-ci fəslinin qısa məzmununu əks etdirməlidir. Magistrant III hesabatı və dissertasiyanın bu hesabatla əhatə olunan hissəsini (2-ci fəsli) təhsilin 2-ci ilinin fevral ayının 15-dək elmi rəhbərə təqdim etməlidir. Elmi rəhbər müvafiq qaydada qiymətləndirməni aparmalı, qiymətləndirmənin nəti-

cələrini əks etdirən hesabatı fevral ayının 25-dək kafedraya təqdim etməlidir.

IV hesabatda tədqiqatın nəticələrinin sintezi, qoyulmuş problemin həlli üçün tədqiqatın nəticələri ilə əsaslandırılmış mülahizə və təkliflər, bu nəticələrin elmi-praktiki əhəmiyyəti və tətbiq sahələri barədə ümumiləşdirilmiş məlumatlar verilməlidir. IV hesabat dissertasiya işinin 3-cü fəslinin qısa məzmununu əks etdirməlidir. Magistrant IV hesabatı və dissertasiyanın bu hesabatla əhatə olunan hissəsini (3-cü fəsil, nəticə və təkiflər) təhsilin ikinci ilinin aprel ayının 10-dək elmi rəhbərə təqdim etməlidir. Elmi rəhbər müvafiq qaydada qiymətləndirməni aparmalı, qiymətləndirmənin nəticələrini əks etdirən hesabatı aprelin 15-dək kafedraya təqdim etməlidir.

Elmi rəhbər hesabatları qiymətləndirərkən magistrantın hesabat və dissertasiyanın bu hesabatla əhatə olunan hissəsi barədə hazırlıq və məlumatlılıq səviyyəsini nəzərə almalıdır. Bunun üçün elmi rəhbər magistrantla şifahi ünsiyyət qurmalı və magistrantın işlə bağlı hazırlıq və məlumatlılıq səviyyəsini müəyyən etməlidir. Magistrantın təqdim etdiyi hesabat və dissertasiyanın bu hesabatla əhatə olunan hissəsi ilə bağlı hazırlıq və məlumatlılıq səviyyəsi aşağı olduğu halda hesabat “0” balla qiymətləndirilir.

Magistrant dissertasiyanın bu qaydalarla müəyyən edilmiş tələblərə uyğun şəkildə tərtib edilmiş yazılı nüsxəsini və dissertasiyanın qısa məzmununu əks etdirən referatı (IV hesabatı təqdim etdikdən sonra) aprelin 20-dək elmi rəhbərə təqdim etməlidir.

Elmi rəhbər dissertasiyanın tam məzmunu ilə tanış olmalı, dissertasiyanın qiymətləndirilməsini bu Qaydaların 16 saylı

əlavəsində göstərilmiş formada aparmalı, qiymətləndirmə blankının bir nüsxəsini aprelin 30-dək kafedraya, digərini isə magistranta təqdim etməlidir.

Kafedra mütəmadi olaraq hesabatların qiymətləndirilməsi prosesinin monitorinqini apara bilər. Bu məqsədlə kafedranın müvafiq ixtisaslar üzrə tədris aparan əməkdaşlarından ibarət olan monitorinq qrupları yaradılır.

Monitorinqlər müsahibə formasında aparılır. Monitorinq üçün dəvət edilən magistrant təyin olunan vaxtda və yerdə müvafiq hesabatı və dissertasiyanın bu hesabatla əhatə olunan hissəsini özü ilə gətirməlidir.

## MAGİSTR DİSSERTASİYASININ MÜDAFİƏYƏ HAZIRLANMASI VƏ QİYMƏTLƏNDİRİLMƏSİ

Magistrant müdafiə üçün dissertasiyanın qısa məzmununu əks etdirən referat tərtib etməli və onu imzalamalıdır. Referat dissertasiyanın yazıldığı dildə, A4 vərəqdə, 12 ölçülü Times New Roman şrifti ilə, 1,5 intervalla yazılmalı və onun həcmi 2 səhifədən çox olmamalıdır.

Dissertasiyanın ilkin müdafiəsi kafedra müdirinin qərarı ilə yaradılan ilkin müdafiə qrupunda təşkil edilir. İlkin müdafiənin məqsədi dissertasiyanın məzmun və tərtibatının, müvafiq sənədlərin (rəsmi rəyçinin qiymətləndirmə blankı istisna olmaqla) müəyyən olunmuş tələblərə uyğunluğunun yoxlanılması, eləcə də magistrantın əsas müdafiəyə hazırlığının dəstəklənməsidir.

Dissertasiya kafedranın yekun rəyi və digər aidiyyəti sənədlərlə birlikdə ADMİU-nun rəhbərliyinə təqdim olunur.

Magistrantı dissertasiya müdafiəsinə buraxmağı mümkün hesab etmədikdə bu məsələyə elmi rəhbərin iştirakı ilə baxılır.

Müdafiəyə buraxılmış dissertasiyalar kafedra tərəfindən müdafiəyə ən azı 15 gün qalmış rəsmi rəyçiyə göndərilir. Rəsmi rəyçi ADMİU-nun elmi dərəcə və ya elmi ada malik olan əməkdaşları ilə yanaşı, digər ali təhsil və elm müəssisələrində, dövlət orqanlarında və digər təşkilatlarda çalışan aparıcı mütəxəssislər sırasından da (elmi dərəcəsi olan) təyin oluna bilər. Rəsmi rəyçi dissertasiyanı aldıqdan sonrakı 10 gün ərzində qiymətləndirməni müvafiq formada aparır, qiymətləndirmə blankının bir nüsxəsini magistranta, digərini isə kafedraya təqdim edir.

# MAGİSTR DİSSERTASİYALARININ BİBLİOQRAFİK GÖSTƏRİCİSİ (2012-2020-ci illər)

## Kulturologiya fakültəsi

### *2012-ci il*

1. **Ağayeva, Şəfiqə Rafiq qızı.** Mədəniyyət sahəsində biznes fəaliyyəti: magistrlik dissertasiyası / Ş. Ağayeva ; elmi rəhbər M. Həsənova ; ADMİU. - Bakı, 2012. - 100 s. - (M-33/2012)
2. **Allaqiyeva, Elnarə Ərşad qızı.** Şərqi Avropa subregionu beynəlxalq turizmdə: magistrlik dissertasiyası / E. Allaqiyeva ; elmi rəhbər İ. Hüseynov ; ADMİU. - Bakı, 2012. -

115 s. - (M-20/2012)

3. **Babayeva, Nuranə Nəriman qızı.** Azərbaycan mədəniyyətində klassik irs problemi (orta əsrlər) : magistrlik dissertasiyası / N. Babayeva ; elmi rəhbər T. Əhmədova ; ADMİU. - Bakı, 2012. - 103 s. - (M-30/2012)
4. **Cabbarova, Fərqanə Cabbar qızı.** İnternet-qlobal mədəniyyətlərarası inteqrasiya kontekstində : magistrlik dissertasiyası / F. Cabbarova ; elmi rəhbər M. Əsədova ; ADMİU. - Bakı, 2012. - 102 s. - (M-17/2012)
5. **Cəbrayılova, Günəş Əmrayıl qızı.** Azərbaycan mədəniyyətinin dostları fondu və onun fəaliyyəti: magistrlik dissertasiyası / G. Cəbrayılova ; elmi rəhbər S. Şahhüseynova ; ADMİU. - Bakı, 2012. - (M-07/2012)
6. **Cəfərli, Ruziyyə Füzuli qızı**. Azərbaycan mədəniyyəti qlobal inteqrasiya prosesində (Şərq-Qərb) : magistrlik dissertasiyası / R. Cəfərli ; elmi rəhbər M. Əsədova; ADMİU.- Bakı, 2012. - 117 s. - (M-03/2012)
7. **Eminova, Aysel Qurban qızı.** Mədəniyyət sferasının marketinqinin xüsusiyyətləri və problemləri : magistrlik dissertasiyası/ A. Eminova ; elmi rəhbər M. Həsənova; ADMİU.- Bakı, 2012. - 109 s. - (M-09/2012)
8. **Əhədova, Gülnar Sahib qızı.** Azərbaycan bölgələrinin sosial-iqtisadi inkişafında turizmin rolu : magistlrik dissertasiyası / G. Əhədova ; elmi rəhbər O. Sultanov ; ADMİU.- Bakı, 2012. - 109 s. -(M-11/2012)
9. **Həmidova, Almaz İkram qızı.** Azərbaycan mədəniyyətində modernləşmənin sosiomədəni aspektləri : magistrlik dissertasiyası / A. Həmidova ; elmi rəhbər M. Manafova ; ADMİU. - Bakı, 2012. - 117 s. - (M-24/2012)

10. **Həsənova, Lalə Eldar qızı.** Klassik Azərbaycan ədəbiyyatı və miniatür sənəti : magistrlik dissertasiyası / L. Həsənova ; elmi rəhbər S. Əliyeva ; ADMİU. - Bakı, 2012. - 94 s. - (M-14/2012)
11. **Hüseynova, Aytən Mübariz qızı.** BMT İP və Azərbaycan mədəni sahədə əməkdaşlıq : magistrlik dissertasiyası / A. Hüseynova ; elmi rəhbər Q. Allahverdiyev ; ADMİU. - Bakı, 2012. - 106 s. - (M-22/2012)
12. **İbazadə, Rəna Sulduz qızı.** Muzeyşünaslığın aktual problemləri: muzey gəaliyyətində milliklə bəşəriliyin inteqrasiyası : magistrlik dissertasiyası / R.bİbazadə ; elmi rəhbər E. Məlikova ; ADMİU. - Bakı, 2012. - 92 s. - (M-06/2012)
13. **İmamveridiyeva, Ülviyyə Ədalət qızı.** Azərbaycan Respublikasında mədəni irsin mühafizəsi işində Beynəlxalq Konvensiyaların rolu : magistlrik dissertasiyası / Ü. İmamveridiyeva ; elmi rəhbər E. Məlikova ; ADMİU. - Bakı, 2012. - 113 s. - (M-18/2012)
14. **İsmayılova, Elmira Etibar qızı.** Milli-mənəvi dəyərlər və Qadın problemləri : magistrlik dissertasiyası/ E.İsmayılova; elmi rəhbər Ə. Tağıyev ; ADMİU. - Bakı, 2012. - 104 s. - (M-16/2012)
15. **Qafarova, Samirə Sahib qızı.** Müasir dövrdə informasiya texnologiyalarının tətbiqi kulturoloji problem kimi : magistrlik dissertasiyası/ S.Qafarova ; elmi rəhbər M. Manafova ; ADMİU. - Bakı, 2012. - 108 s. - (M-34/2012)
16. **Məmmədova, Tamilla Famil qızı.** Münaqişə zonalarında tarixi və mədəni abidələrin təcavüzünə dair Beynəlxalq Konvensiyaların icra prinsipləri : magistrlik dissertasiyası / T. Məmmədova ; elmi rəhbər Y. Eyvazova ; ADMİU. -

Bakı, 2012. - 101 s. - (M-28/2012)

17. **Sadıqov, Röyal Ağa oğlu.** Televiziya və radio verlişləri vasitəsilə Beynəlxalq mədəni əlaqələrin təşkili : magistrlik dissertasiyası / R. Sadıqöva ; elmi rəhbər N. Mehdi ; ADMİU. - Bakı, 2012. - 112 s. - (M-04/2012)
18. **Sadıqova, İlahə Artur qızı.** Azərbaycan tarixi filmlərinin kulturoloji təhlili (1960-80-ci illər) : magistrlik dissertasiyası / İ. Sadıqova ; elmi rəhbər T. Əhmədova ; ADMİU. - Bakı, 2012. - 118 s. - ( M-36/2012)
19. **Süleymanova, Günay Sabir qızı**. İnformasiya cəmiyyətində kommunikasiya prosesləri : magistrlik dissertasiyası / G. Süleymanova ; elmi rəhbər S. Əliyeva ; ADMİU. - Bakı, 2012. - 114 s. - (M-05/2012)
20. **Talıblı, Heyran Axilles qızı.** Azərbaycandakı Misir Mədəniyyət Mərkəzinin fəaliyyət istiqamətləri : magistrlik dissertasiyası/ H.Talıblı; elmi rəhbər T. Əhmədova; ADMİU. - Bakı, 2012. - 104 s. - (M-01/2012)
21. **Teymurova, Çiçək Ziyad qızı.** Azərbaycanda muzey fəaliyyəti mədəniyyət siyasətinin tərkib hissəsi kimi : magistrlik dissertasiyası / Ç. Teymurova ; elmi rəhbər A. Əlizadə ; ADMİU. - Bakı, 2012. - 103 s. - (M-02/2012)
22. **Teymurova, Lalə Əfrasiyab qızı.** Beynəlxalq kinofestivallar beynəlxalq mübadilə forması kimi : magistrlik dissertasiyası/ L.Teymurova; elmi rəhbər N. Mehdi; ADMİU.- Bakı, 2012. - 100 s. - (M-25/2012)

## *2013-cü il*

1. **Abbasov, Asim Bəşarət oğlu**. Mədəniyyətlərin qarşılıqlı

təsiri və dil problemi : magistrlik dissertasiyası / A. B. Abbasov ; elmi rəhbər A. Abıyev ; ADMİU. - Bakı, 2013.- 101 s. - (M-28/2013)

2. **Əhmədova, Sevda Behbud qızı.** Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitietinin dərslik və nəşriyyat sahəsində əldə etdiyi nailiyyətlər : magistrlik dissertasiyası/ S. Əhmədova ; elmi rəhbər G. Əliyeva ; ADMİU. - Bakı, 2013. - 115 s. - (M-16/2013)
3. **Ələkbərova, Aynur Yusif qızı.** Azərbaycanda qadın siyasətinin mənəvi, hüquqi və intellektual amilləri : magistrlik dissertaiyası / A. Ələkbərova ; elmi rəhbər M. Süleymanlı ; ADMİU. - Bakı, 2013. - 106 s. - ( M-39/2013)
4. **Əliyeva, Ruhiyyə Fədail qızı.** Mədəni irs və kulturoloji identikliyə münasibət : magistrlik dissertaiyası/ R. Əliyeva; elmi rəhbər T. Əfəndiyev ; ADMİU. - Bakı, 2013. - 117 s. - (M-26/2013)
5. **Hacıyeva, Elnarə Dilqəm qızı.** Demokratiya və ümumbəşər dəyərlər : magistrlik dissertasiyası / E. Hacıyeva ; elmi rəhbər A. Əlizadə ; ADMİU. - Bakı, 2013. - 122 s. - (M-17/2013)
6. **Heydərova, Çinarə Asif qızı.** Müstəqilllik dövründə Azərbaycan muzeyləri şəbəkəsində həyata keçirilən islahatlar : magistrlik dissertasiyası / Ç. Heydərova ; elmi rəhbər A. Əlizadə ; ADMİU. - Bakı, 2013. - 103 s. - (M-13/2013)
7. **Hüseynov, Fərid Bəybala oğlu.** Mədəniyyətlərin inteqrasiyasında milli mentalitetin qorunma problemi : magistrlik dissertasiyası / F. Hüseynov ; elmi rəhbər V. Əliyev ; ADMİU. - Bakı, 2013. - 108 s. - (M-12/2013)
8. **İmaməliyeva, Asimə Hidayət qızı.** Dünya mədəniyyət si-

yasətində beynəlxalq müqavilə, saziş və konvensiyaların əhəmiyyəti : magistrlik dissertasiyası / A. İmaməliyeva ; elmi rəhbər A. Əlizadə ; ADMİU. - Bakı, 2013. - 100 s. - (M-29/2013)

9. **İsayeva, Nərmin Tələt qızı.** Müasir Azərbaycan məti beynəlxalq aləmdə : magistrlik dissertasiyası/ N. İsayeva ; elmi rəhbər T. Əfəndiyev ; ADMİU. - Bakı : ADMİU, 2013. - 120 s. - (M-21/2013)
10. **İsmayılova, Günel Eldar qızı.** Dünyanı dəyişdirən müasir texnologiyalar : magistrlik dissertasiyası / G. İsmayılova ; elmi rəhbər M. Manafova ; ADMİU. - Bakı, 2013. - 131 s. - (M-32/2013)
11. **Quliyeva, Nigar Elxan qızı.** Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Univeristetinin 90 illik fəaliyyəti dövründə elmin inkişafı: magistrlik dissertasiyası/ N. Quliyeva; elmi rəhbər Ə. Tağıyev ; ADMİU. - Bakı, 2013. - (M-01/2013)
12. **Quliyeva, Nigar Hidayət qızı.** Sosial-mədəni sferada menecmentin xarakterik əlamətləri : magistrlik dissertasiyası / N.Quliyeva ; elmi rəhbər A. İsfəndiyarov ; ADMİU. - Bakı, 2013. - 95 s. - (M-27/2013)
13. **Lətifov, Etibar Xanbala oğlu.** Azərbaycançılıq məfkurəsində mədəniyyət amili : magistrlik dissertasiyası / E.Lətifov ; elmi rəhbər N. Şəmiszadə ; ADMİU. - Bakı, 2013. - 104 s. - (M-11/2013)
14. **Muradova, Səbinə Eldar qızı.** Mədəni irsin təbliğində müasir texnologiyaların rolu : magistrlik dissertasiyası / S. Muradova ; elmi rəhbər N. Şəmsizadə ; ADMİU. - Bakı, 2013. - 105 s. - (M-09/2013)

15. **Mustafayeva, Firuzə Ələsgər qızı.** Azərbaycanın beynəlxalq inteqrasiyasında Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Univeristetinin fəaliyyəti : magistrlik dissertasiyası/ F. Mustafayeva; elmi rəhbər T. Əfəndiyev; ADMİU. - Bakı, 2013. - 109 s. - (M-38/2013)
16. **Səmədova, Aliyə Arif qızı.** Mədəniyyətlərarası diaoloq: nailiyyətlər və problemlər: magistrlik dissertasiyası/ A. Səmədova ; elmi rəhbər N. Mehdi ; ADMİU. - Bakı, 2013. - 105 s. - (M-06/2013)
17. **Şirinov, Elnur Abuləzim oğlu.** Muzey fəaliyyətində milli və bəşəri dəyərlərə inteqrasiya : magistrlik dissertasiyası / E.Şirinov ; elmi rəhbər S. Əliyeva ; ADMİU. - Bakı, 2013.- 93 s. - (M-04/2013)
18. **Tağısoy, Gözəl Valeh qızı.** Azərbaycanın Avropa ölkələri ilə elm və təhsil sahəsində əməkdaşlığı : magistrlik dissertasiyası / G.Tağısoy; elmi rəhbər İ. Hüseynov; ADMİU.- Bakı, 2013. - 106 s. - (M-22/2013)
19. **Verdiyev, Etibar Əmrah oğlu.** Muzeylərdə informasiya kommunikasiya texnologiyalarının tətbiqi : magistrlik dissertasiyası / E. Verdiyev ; elmi rəhbər E. H. Məlikov ; ADMİU. - Bakı, 2013. - 105 s. - (M-07/2013)
20. **Vəlixanova, Elnarə Oqtay qızı.** Müasir sosial şəraitdə mədəni industriya : magistrlik dissertasiyası/ E.Vəlixanova; elmi rəhbər M. Manafova ; ADMİU. - Bakı : ADMİU, 2013. - 103 s. - (M-37/2013)
21. **Eyvazlı, Səmra Hilal qızı.** Turizm və sosial-mədəni servisdə marketinq fəaliyyəti: magistrlik dissertasiyası/ S. Eyvazlı ; elmi rəhbər O. Sultanov ; ADMİU. - Bakı, 2013. - 100 s. - (M-19/2013)

## *2014-cü il*

1. **Abdullayeva, Arzu Babək qızı.** Muzeylər-sosiomədəni inkişaf kontekstində: magistrlik dissertasiyası / A. Abdullayeva ; elmi rəhbər L. Atakişiyeva ; ADMİU. - Bakı, 2014. - 100 s. - (M-46/2014)
2. **Abdullasoy, Emin Natiq oğlu.** Beynəlxalq təşkilatların təşkilat daxili mexanizmləri : magistrlik dissertasiyası / E. Abdullasoy ; elmi rəhbər N. Əfəndiyeva ; ADMİU. - Bakı, 2014. - 114 s. - (M-23/2014)
3. **Baxışova, Günel Nimət qızı.** Azərbaycanın xarici mədəniyyət siyasəti milli maraqlar konteksində : magistrlik dissertasiyası / G. Baxışova ; elmi rəhbər. M. Baxışov ; ADMİU. - Bakı, 2014. - 118 s. - (M-08/2014)
4. **Fətəliyeva, Günay Aydın qızı.** XX əsr Azərbaycan ədəbiyyatında emansipassiya kulturoloji problem kimi : magistrlik dissertasiyası / G. Fətəliyeva ; elmi rəhbər G. Əliyeva ; ADMİU. - Bakı, 2014. - 102 s. - (M-27/2014)
